**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.2.180**

**YEGANƏ MƏMMƏDOVA***

# AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA XOCALI FACİƏSİNİN ƏKSİ

*Hər bir xalqın tarixində baş verən hadisələr onun ədəbiyyatında və incəsənətində öz əksini tapır. Azərbaycan xalqı və mədəniyyəti də bu cəhətdən istisna deyil. Xalqımızın tarixindəki silinməz izlər qoyan faciələr ədəbiyyata və incəsənətə də keçərək, bir tərəfdən yazıçının, rəssamın, heykəltəraşın vətəndaşlıq mövqeyinin ortaya qoyur, digər tərəfdən bu tarixi hadisələrin qan yaddaşımızda əbədi əks olunmasına xidmət edir. Azərbaycan xalqının tarixində yaşanan belə faciələrdən biri – Xocalı faciəsidir. Xocalı soyqırımı XX əsrdə insanlığın yaşadığı ən dəhşətli faciələrdəndir. Bu faciənin baş vermə zamanından keçən 30 il ərzində Azərbaycan incəsənət xadimləri öz vətəndaşlıq borclarını yerinə yetirərək, həmin faciəni əsərlərinə gətirmişlər. Azərbaycan rəssamları Natiq Əliyev, Xanlar Qurbanov, Aslan Rüstəmovun və b. bu qətliamın qurbanlarına həsr olunmuş əsərləri müxtəlif sərgilərdə nümayiş olunmuşdur. Xocalı faciəsinin xarici ölkələrdə tanıdılmasına xalq rəssamı Natiq Əliyevin əsərlərinin xüsusi rolu vardır. Onun Xocalıya həsr olunmuş iki əsəri Türkiyədə, bundan əlavə Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində, Mexikoda ucaldılmışdır. Məqalədə Xocalı faciəsinin Azərbaycan heykəltəraşlığında işlənməsi məsələsi öyrənilmişdir.*

***Açar sözlər:*** *Heykəl, obraz, faciə, Xocalı, abidə, plastika, tarix.*

## Giriş

XX əsrin ən dəhşətli faciəsi xocalı soyqırımını hər bir vətəndaşın borcudur ki, onun haqqında ətraflı məlumat versin və ictimaiyyətdə düzgün dürüst təbliğat işi aparsın. Bu dəhşətli qətliamın ağrıları bu günə kimi də bizi tərk etməməkdə, düşmən gülləsinə tuş gəlmiş günahsız soydaşlarımızın xatirəsi əziz tutulmaqdadır. Düşmənin davamlı təbliğatına baxmayaraq ölkəmizin müxtəlif qurumları bu faciənin beynəlxalq səviyyədə tanınmasına səy göstərməkdə, əhali isə onun baiskarlarının layiqli cəzasını alacağına ümid bəsləməkdədirlər. Onların sırasında xeyli sənət adamları da çoxdur. Əgər desək ki, ötən bu iyirmi ildən çox dövrdə onlar Xocalı faciəsinin yaddaşlarda əbədi iz salmış dəhşətlərinə yaradıcı münasibət bildirməkdədirlər, onda həqiqəti ifadə etmiş olarıq.

## Əsas məzmun

Ölkəmizdə və onun hüdudlarından kənarda baş tutan rəssamlıq sərgilərində, park və meydanlarda Xocalı faciəsinə həsr olunmuş əsərlərin davamlı yer alması da birmənalıdır. Bu gün ölkə və xarici dövlətlərdə bu mövzuda yaradılan sənət əsərlərinin nümayiş etdirilməsinin faciənin yetişməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində önəmli rol oynaması da danılmazdır.

Səid Rüstəm bu əsərindən sonra da bir-neçə plastik nümunədə yaddaşlarda yaşanan müxtəlif hadisələrə yaddaqalan bədii tutum verə bilmişdir. Bu mənada "Əfqan şəhidləri" (1990), "İstiqlaliyyət" (1992) və bir-neçə variantda gerçəkləşmiş "Xocalı" (1992) əsərlərinin adını çəksək, kifayət edər.

Xocalı qətliamının heykəltəraşın yaradıcılığında geniş yer tutduğunu elə əsərlərin sayı da təsdiqləyir. Belə ki, müəllifin bir vətəndaş olaraq ifadə olunan ağrılarının bədii görüntüsü sayca dörddür. Yazıqlar olsun ki, çoxdan ərsəyə gətirilən və təsirli bədii tutuma malik olan bu dörd layihə-abidənin heç biri reallaşmayıb, amma inanırıq ki, bunun nə vaxtsa baş tutacağı gün uzaqda deyil. Çünki, hələ ki, Azərbaycanda Xocalı qətliamının miqyasına müvafiq abidə qoyulmayıb...

Yeri gəlmişkən deyək ki, xalq rəssamı Natiq Əliyevin Xocalıya həsr olunmuş iki əsəri qardaş Türkiyədə ucaldılıb. Onlarda faciənin mənəvi-psixoloji məqamlarının qabardılmasına üstünlük

verilib. Memorial kompleksin qarşısında ucaldılmış ana qucağında həlak olmuş uşağını qaldıraraq fəryad edən şəkildə heykəli yerləşdirilmişdir. Xocalı memorial muzey kompleksi yarım dairəvi şəkildə icra olunmuşdur. Ana heykəli emosonal, çılğın və məğlubedilməz ruhludur. Bədnam qonşularımız olan ermənilər tərəfindən başımıza gətirilmiş əsrin ən dəhşətli faciəsini özündə əks etdirən Xocalı soyqırımında günahsız insanların kütləvi şəkildə məhv edilməsi səhnəsini ana obrazı öldürülmüş uşağının timsalında dünyaya çatdırılması dayanır. Ana fəryad edərək heç bir günahı olmayan övladının ölümünə dəhşətli dərəcədə yanması kompozisiyanın mərkəzində dayanır. Daxili hərəkətə əsaslanan kompozisiya dəqiq cizgiləri, ifadəli silueti ilə seçilir. Gərgin və emosional yapma üsulu ananın keçirdiyi hislərlə uyuşur. Bu kompozisiya müəllifin bədii forma sahəsindəki novator axtarışlarının əyani nümunəsidir.

Natiq Əliyevin 2012-ci ildə Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərinin "Dostluq parkında" Xocalı soyqırımı qurbanlarının və Bosniya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin açılışı olmuşdur. Natiq Əliyevin Sarayevo şəhərində Xocalı soyqırımına aid abidənin maraqlı tərəfi odur ki, orada iki mövzu var. Həm Xocalı soyqırımı, həm də Bosniya faciəsində həlak olmuş insanların xatirəsi. Həmin mövzuya yanaşma tamam fərqlidir. Bu abidənin özündə sükut var. O abidənin mövzusu bir azərbaycanlı və bir bosniyalı ananın görüşüb, bir-birilərinə dərdlərindən danışmalarından ibarətdir . Ümumiyyətlə, həmin abidənin açılışında insanların abidəyə həvəsi, marağı çox yüksəkdir.

Natiq Əliyevin Mexikoda Xocalı soyqırımı abidəsində əllərini yuxarı qaldırmış qadın obrazı canlandırılımışdır. Heykəltəraşı Xocalıda günahsız şəkildə öldürülmüş qadınlar, uşaqlar, yaşlı insanlar çox təsirləndirmişdir. Xocalıya həsr etdiyi bütün əsərlərində heykəltəraş qadın obrazı ilə bu faciənin acılığını, dəhşətini bütün dünyaya çatdıra bilmişdir. Mexikoda ucalmış xocalı abidəsində də, qadın bu haqsız və günahsız insanların qırğınına fəryad edən şəkildə təsvir olunmuşdur. Qadın əllərini yuxarı qaldıraraq Allahdan sanki kömək istəyir və bu dəhşətin yerdə qalmaması üçün bir işarənin simvolu kimi yerinə yetirilmişdir.

Natiq Əliyevin Xocalı faciəsinə həsr etdiyi abidələri ilə tanışlıq onun yaradıcılığının bəzi ümumi cəhətlərini və müəyyən iş üsullarını aydınlaşdırmağa imkan verir. Bu cəhətlərdən biri fiqurlara möhkəmlik və monolitlik verən formanın səylə, dəqiqliklə işlənməsidir. Onunu hazırladığı abidələrin əsas xüsusiyyətlərindən biri də onlardakı pisxologizim və müasirliyimizin tariximizlə əlaqələndirilməsidir.

Etiraf edək ki, Azərbaycan xalqının heç vaxt yaddaşından silinməyəcək bu faciənin dəhşətlərinə hamını razı sala biləcək bədii-plastik görkəm vermək elə də asan yaradıcılıq məsələsi deyil. Bununla belə düşünürük ki, Səid Rüstəmin ərsəyə gətirdiyi dörd kompozisiyanın hər birində Xocalı faciəsinin hələ də sızıltı verən ağrılarına ümumi görünüşü və detalları tamaşaçını duyğulandıracaq bədii həll tapılmışdır...

Bu yerdə deyək ki, Xocalı faciəsinə ilk və əhatəli plastik münasibət bildirən heykəltəraş Xanlar Əhmədov olmuşdur. Belə ki, o, qətliamın baş verməsindən dərhal sonra bütün yaradıcılıq işlərini davam etdirməkdən imtina edərək, bütün səylərini Xocalı mövzusuna yönəltmişdir. Bir il ərzində işlədiyi heykəltəraşlıq və qrafika əsərlərini faciənin ildönümündə Bakıda fərdi sərgi şəklində ictimaiyyətə təqdim edən Xanlar Əhmədov, bununla da özünün vətəndaş-sənətkar mövqeyinin necəliyini hamıya nümayiş etdirmişdir. Onun yaratdığı 25 dəzgah heykəltəraşlığı nümunəsində faciə qurbanlarının ümumiləşdirilmiş obrazı yaradılmışdır. "Xocalı şəhidi", "Mübariz", "Son ümid", "Şəhid anası", "Xocalı faciəsi" və s. əsərlərdə müşahidə olunan yaşanmış ağrının cəlbedici və düşündürücü plastik həlli müəllifin yüksək sənətkarlığından xəbər verir. Soyuq fevral gecəsi qəfil düşmən təcavüzünə məruz qalan şəhər sakinlərinin-qocaların, ana-bacıların və

uşaqların ərşə yüksələn ah-naləsi, mərdliyi və mübarizə ruhu bu plastika nümunələrində yaddaqalan biçimdə ifadə olunmuşdur...

Əlavə edək ki, X.Əhmədov həmin sərgidən sonra da Xocalı mövzusundan ayrılmamışdır. Onun artıq ənənəvi olaraq keçirilən "Xocalı" sərgisinin iki dəfə baş mükafatına layiq görülməsi də axtarışlarının nə qədər ciddi olduğunu sərgiləyir. Onun 2012 və 2013-cü illərdə işlədiyi kompozisiyalarda faciənin ümumiləşdirilmiş tutumu obrazlılıqla fəlsəfi-psixoloji yaşantıların qovşağında təqdim olunduğundan, kompozisiyalar kifayət qədər cəlbedicidirlər. Bədii-estetik tutumuna görə çox orijinal olan bu əsərlərin küçə və meydanlara çıxarılması, qənaətimizcə faciənin əbədiləşdirilməsi yönündə məntiqli addım olardı. Bu yerdə Xocalı faciəsinə paytaxtımızda ucaldılmış abidəni xatırlatmaq yerinə düşərdi. Burada əvvəlcə müəllifi Muxtar Hacıyev olan abidə mövcud idi, amma miqyasının kiçikliyinə görə onu yenisi ilə əvəzləmək lazım gəldi. Müəllifi Aslan Rüstəmov olan yeni abidə (2011) özündə qucağında şəhid körpəni tutumuş ana obrazını ehtiva edir. Əsərin "Əsrin faciəsi" kimi dəyərləndirilən faciənin miqyasına adekvat olmadığı adı gözlə belə görünəndir. Belə ki, fiqurun detallaşdırılmasına meylli olan müəllif, bu səbəbdən bütünlükdə onun obrazlaşmasına, ifadəli və təsirli siluet almasına nail ola bilməmişdir.

Yeri gəlmişkən qeyd edək ki, həmin əsərlərin bir qismi hadisələrin baş verdiyi vaxt ilə müqayisədə çox tez, bir qismi isə bəlkə də gec qoyulub. Bu məsələdə tələskənliyə də, gecikməyə də haqq qazandıracaq səbəblər tapmaq mümkündür. Yəqin ki, baş vermiş hadisəyə tezliklə abidə ucaldılmasında maraqlı olanların bu istəyi bilavasitə onun unudulmamasından, tez-tez xatırlanmaq istəyindən qaynaqlanır. Yəqin ki, "Əsrin faciəsi" kimi dəyərləndirilən Xocalı soyqırımına hadisədən cəmisi bir il sonra respublikanın paytaxtında abidə qoyulması da bu niyyətdən irəli gəlmişdi. Qənaətimizcə bu addımda vətənpərvərlik hisslərinin nümayişi qalan məsələləri üstələmişdi. Odur ki, tələsgənliklə hazırlanan heykəl (müəllifi Əfqan Muxtarov) faciənin miqyası ilə müqayisədə çox cılız alınmışdı. Abidənin açılışından keçən çox qısa müddətdə bu "vətəpərvərliyin" nəticəsi duyuldu və bundan sonra onun yenisi ilə əvəzlənməsi barəsində düşünülməyə başlandı. 2011-ci ildə əvvəlkinin yerində başqa bir "Vətən harayı" heykəli (müəllifləri Aslan, Mahmud və Teymur Rüstəmovlar) ucaldıldı. Amma bu proses də səhvsiz ötüşmədi. Başqa sözlə desək, abidənin hazırlanması üçün müsabiqə keçirilmədi. Əslində beynəlxalq təcrübədə bu cür böyük ictimai əhəmiyyətli abidələrin hazırlanması və müsbət nəticələrin əldə olunması üçün müsabiqələrin keçirilməsi ənənəsi mövcuddur. Amma bu baş vermədi və konkret adamlara həvalə olunan bu məsuliyyətli iş də arzulanan nəticəni vermədi. Xatırladaq ki, müstəqillik illərində açılışı baş tutan bütün heykəllər də müsabiqə keçirilmədən paytaxtın küçə və meydanlarında yer alıblar. Bütünlükdə götürdükdə bunun xoşagəlməz nəticələr verdiyi adi gözlə belə görünəndir.

**Nəticə**

Müstəqillik dövründə digər müəlliflər də Xocalı ünvanlı kompozisiyalar yaratmışlar. Bu mənada Sahib Quliyevin "Döyüşən şəhər" və "Qarabağlı qadın", Azad Əliyevin "Əbədiyyət", "Məmməd Rəşidovun "Daşın göz yaşları", Fuad Salayevin "Döyüşçü", Tarverdi Quliyevin "Xocalı faciəsi", Fuad Cəfərovun "Ağrı", Natiq Əliyevin "Yaralı" və s. əsərlərinin adını çəkmək olar.

## ƏDƏBİYYAT


1. Hüseynova, A. Natiq Əliyev: "Xocalı soyqırımı abidəsi insanda emosiya yaratmalıdır". 1905.az. 07.02.2014
2. Hacızadə, A. Azərbaycan heykəltəraşı Natiq Əliyev Rusiya Rəssamlıq Akademiyasının akademiki seçilmişdir //Azərbaycan.- 2008.- 22 may.- S. 5.
3. Əliyev, Z. Heykəltəraşın sənət dünyasındakı izləri: Xalq rəssamı Natiq Əliyevin portret cizgiləri //Mədəniyyət.- 2008.- 18 dekabr.- S. 8.

4. Salamzadə, Ə. Xocalı faciəsi Azərbaycan təsviri sənətində // Xalq qəzeti.- 2019.- 23 fevral.- S.6.
5. Quliyev, Ə. Xocalı soyqırımı təsviri sənətdə // 525-ci qəzet.- 2016.- 25 fevral.- S.6.
6. Qasımov, F. Xocalı soyqırımı abidələri: [Mətn] hekəltəraş Natiq Əliyevin yaradıcılığında. //Mədəni həyat.-2014.- № 8.- S. 82-85.

**** Azərbaycan Rəssamlıq Akademiyasının***
***"Heykəltəraşlıq" kafedrasının baş laborantı, sənətşünas.***
***E-mail: yegishka@mail.ru***

**Yegana Mammadova**

## REFLECTION OF THE KHOJALI TRAGEDY IN AZERBAIJAN SCULPTURE

The events taking place in the history of each nation are reflected in its literature and art. The Azerbaijani people and culture are no exception in this regard. The tragedies that left an indelible mark on the history of our people passed to literature and art, on the one hand, they reveal the civic position of the writer, artist, sculptor and on the other hand, they serve to reflect these historical events forever in our blood memory. One of such tragedies in the history of the Azerbaijani people is the Khojaly tragedy. The Khojaly genocide is one of the most terrible tragedies experienced by humanity in the 20th century. The works of Azerbaijani artists such as Natig Aliyev, Khanlar Gurbanov, Aslan Rustamov and others dedicated to the victims of this massacre were exhibited at various exhibitions. The works by People's artist Natig Aliyev play a special role in the promotion of Khojaly tragedy in foreign countries. Two of his works dedicated to Khojaly were erected in Turkey, in addition, in the capital of Bosnia and Herzegovina in the city Sarajevo and Mexico. In the article the issue of the development of the Khojaly tragedy in Azerbaijani sculpture is studied.

**Keywords:** *Sculpture, image, tragedy, Khojaly, monument, plasticity, history*

**Егана Маммадова**

## ОТРАЖЕНИЕ ХОДЖАЛИНСКОЙ ТРАГЕДИИ В АЗЕРБАЙДЖАНСКОЙ СКУЛЬПТУРЕ

События истории каждого народа нашли отражение в его литературе и искусстве. Народ и культура Азербайджана в этом отношении не являются исключением. Трагедии, оставившие неизгладимый след в истории нашего народа, перешли также в литературу и искусство, с одной стороны, раскрывая гражданскую позицию писателя, художника, скульптора, а с другой стороны, способствуя отражению этих исторических событий в нашей памяти. Одной из таких трагедий в истории азербайджанского народа является Ходжалинская трагедия. Ходжалинский геноцид – одна из самых страшных трагедий, пережитых человечеством в XX веке. За 30 лет, прошедших с момента этой трагедии, азербайджанские художники выполнили свой гражданский долг и воплотили эту трагедию в своих произведениях. Работы Азербайджанских скульпторов Натиг Алиева, Ханлар Гурбанова, Аслан Рустамова и др. посвященные жертвам этой резни, экспонировались на

различных выставках. Особую роль в популяризации Ходжалинской трагедии за рубежом играют произведения народного художника Натига Алиева. Две его работы, посвященные Ходжалы, установлены в Турции, а также в столице Боснии и Герцеговины Сараево и в Мехико. В статье исследуется проблема трактовки Ходжалинской трагедии в азербайджанской скульптуре.

**Ключевые слова:** *Скульптура, образ, трагедия, Ходжалы, памятник, пластика, история.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 11.04.2025**
**Son daxilolma tarixi:08.05.2025**